

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

Aprel 2022

www.ereforms.gov.az
info@ereforms.gov.az

“

**Qeyri-neft ixracımız da kifayət qədər artıb – 45 faiz.**

Xarici ticarət dövriyyəmiz 60 faizdən çox artıb. İxracımız təxminən iki dəfə artıb. Əlbəttə, burada neftin artan qiymətləri də nəzərə alınmalıdır. Ancaq qeyri-neft ixracımız da kifayət qədər artıb – 45 faiz. Bu da məhz aparılan islahatlar nəticəsində baş vermiş hadisədir.  Əlbəttə, xarici ticarət dövriyyəmiz artıb və xarici dövlət borcumuz azalıb. Əgər keçən ilin aprel ayı ilə müqayisə etsək, görərik ki, keçən ilin aprelində xarici dövlət borcumuz ümumi daxili məhsulun 18 faizini təşkil edirdi, hazırda cəmi 12,5 faizini təşkil edir.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 2022-ci il 12 aprel tarixində bu ilin I rübünün yekunlarına həsr olunan müşavirədəki çıxışından**

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 13

“Azərkosmos”a aid xidmət ixracı haqqında məlumat ____ səh. 16

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ____ səh. 18

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat ____ səh. 20

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ____ səh. 23


2022 İXRAC İCMALI aprel

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2022-ci ilin yanvar-mart ayları ərzində **8 milyard ABŞ dolları** dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-mart aylarında qeyri-neft sektoru üzrə ixrac **727,2 milyon ABŞ dolları** təşkil etmişdir

2022-ci ilin yanvar-mart ayları ərzində Azərbaycanın ixracı 8 mlrd. ABŞ dolları, qeyri-neft sektoru üzrə 727,2 mln. ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2021-ci il ilə müqayisədə **225,6 mln. ABŞ dolları** və ya **45%** artıb.

2022-ci ilin yanvar-mart ayları ərzində meyvə-tərəvəz məhsulları ötən ilin eyni dövrü ilə müqayisədə 28,5% artaraq 124,9 milyon ABŞ dolları təşkil edib. Müvafiq dövr ərzində kimya sənayesi məhsullarının ixracı 10 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracı 63,9%, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 48,7%, pambıq iplik ixracı 29,3%, pambıq lifi ixracı isə 5,6% artıb.

2022-ci ilin yanvar-mart ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (72,2 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda karbamid (53,2 milyon ABŞ dolları) ikinci,

qabığı təmizlənmiş meşə fındığı (39,5 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2022-ci ilin yanvar-mart ayları ərzində Türkiyəyə 255,2 milyon ABŞ dolları, Rusiya Federasiyasına 149,4 milyon ABŞ dolları, Gürcüstana 47,4 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 33,3 milyon ABŞ dolları və ABŞ-a isə 28,9 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2022-ci ilin mart ayı üzrə ixrac 2 mlrd ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 55,9% təşkil etməklə 265,5 mln ABŞ dolları olub. 2022-ci ilin mart ayı ərzində yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq ayı ilə müqayisədə 13,6% artaraq 48,8 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 70,1% artaraq 216,7 milyon ABŞ dolları təşkil edib.

2022-ci ilin mart ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Türkiyə (101,9 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Rusiya Federasiyası ikinci (30,4 milyon ABŞ dolları) və Gürcüstan üçüncü (19,3 milyon ABŞ dolları) olub.

2022-ci ilin mart ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında karbamid (23,9 milyon ABŞ dolları) birinci, pambıq mahlıcı (21,1 milyon ABŞ dolları) ikinci və polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr (18,6 milyon ABŞ dolları) üçüncü olub.



# 2022-Cİ İLİN YANVAR-MART AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN MART AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN MART AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)





# 2022-Cİ İLİN YANVAR-MART AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN MART AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2022-Cİ İLİN YANVAR-MART AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2022 | 2021 |
|---|---|---|
| Pambıq mahlıcı | 72,2 | 68,6 |
| Karbamid | 53,2 | 1,7 |
| Meşə fındığı | 39,5 | 28,5 |
| Tomat (pomidor) | 38,8 | 21,3 |
| Metanol (metil spirti) | 37,1 | 0 |
| Elektrik enerjisi | 33,4 | 16,1 |
| İlkin formalı polipropilen (5 PP) | 31,1 | 26,8 |
| Qızıl | 30,9 | 43,2 |
| Xurma | 29,5 | 31,9 |

# 2022-Cİ İLİN YANVAR-MART AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2022 | 2021 |
|---|---|---|
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 27,9 | 21,7 |
| Polimerləşmədə ilkin formalı maddələr | 23,2 | 17,7 |
| Digər yağlar və məhsullar | 20,1 | 10 |
| PE Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 19,4 | 13,4 |
| Alüminium plitələr | 19,3 | 14,9 |
| Emal olunmamış alüminium ərintiləri | 19,1 | 6,1 |
| Aşqarlanmamış alüminiumdan düzbucaqlı plitələr | 14,9 | 14,5 |
| 41 ALU Emal olunmamış aşqarlanmamış alüminium | 14,9 | 6,4 |
| Tərkibində 0,25 kütlə %-dən az karbonlu düzbucaqlı polad yarımfabrikatlar | 10,8 | 4,6 |

2022 İXRAC İCMALI aprel

# 2022-Cİ İLİN MART AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2022-ci ilin yanvar-mart ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “MKT İstehsalat Kommersiya” MMC, “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, “P-Aqro” MMC, “Aqrovest” MMC, “Çinar Aqro” MMC, “Mors Trading” MMC, “STP Alüminium” MMC, “Product Service” MMC, “ZR-78 Company” MMC, “Azərbaycan Şəkər İstehsalat Birliyi” MMC.

Qeyri-neft sektoru üzə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, “Azəralüminium” MMC, “Azərenerji” ATSC, Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “AzerGold” QSC, “Azəripək” MMC, “Azərbaycan Hava Yolları” QSC, “Geofizika və Geologiya İdarəsi”, Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2022-Cİ İLİN YANVAR-MART AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## (ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI aprel



# 2022-Cİ İLİN YANVAR-MART AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)






* "SOCAR Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir

** «AzərGold» QSC-nın təqdim etdiyi rəqəmlər əsasında

# 3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin yanvar-mart aylarında “Azərkosmos” ASC 6,2 milyon ABŞ dollari dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2022-ci ilin yanvar-mart aylarında “Azərkosmos” ASC tərəfindən dünyanın **31 ölkəsinə 6,2 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. “Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 86 faizini təşkil edib. 2022-ci ilin mart ayında isə “Azərkosmos” ASC dünyanın **30 ölkəsinə 2,1 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2022-ci ilin yanvar-mart ayları ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində isə 1,6 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 1,1 milyon ABŞ dolları ilə Fransa, 1,1 milyon ABŞ dolları ilə Lüksemburq, 0,6 milyon ABŞ dolları ilə BƏƏ və 0,4 milyon ABŞ dolları ilə Pakistan qərarlaşıb.

# 2022-Cİ İLİN YANVAR-MART AYLARINDA “AZƏRKOSMOS” ASC 6,2 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2022
İXRAC İCMALI
aprel



## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| Məbləğ | Ölkə |
|---|---|
| 1,6 mln $ | Birləşmiş Krallıq |
| 1,1 mln $ | Fransa |
| 1,1 mln $ | Lüksemburq |
| 0,6 mln $ | BƏƏ |
| 0,4 mln $ | Pakistan |

yanvar-mart

| 2021 | | 2022 |
|---|---|---|
| 10,6 mln $ | -58,5% | 6,2 mln $ |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin yanvar-mart ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 549,7 milyon manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2022-ci ilin mart ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyat-ların həcmi **158,5 milyon manat** təşkil edib. 2022-ci ilin yanvar-mart aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **549,7 milyon manatlıq** əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR
(milyon manatla)

2022 İXRAC İCMALI aprel

| | 2020 | 2021 | 2022* |
|---|---|---|---|
| Yanvar | 85,2 | 72,2 | 204,7 |
| Fevral | 72,9 | 112,2 | 186,5 |
| Mart | 53,9 | 93,2 | 158,5 |
| Aprel | | | |
| May | | | |
| İyun | | | |
| İyul | | | |
| Avqust | | | |
| Sentyabr | | | |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | 212 mln | 277,6 mln | 549,7 mln |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT



## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 2 milyard 936 milyon ABŞ dolları təşkil etmişdir

2022-ci ilin mart ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **48,7 milyon ABŞ dolları** təşkil edib.

2022-ci ilin yanvar-mart aylarında Azexport.az portalına **132,6 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2022-ci ilin mart ayında Azexport.az portalına edilən ixrac sifarişlərinin tərkibində toyuq, tibbi tənzif, zəli, tikinti materialları, tütün, buğda unu, qarğıdalı yağı, günəbaxan yağı, kartof, çiyələk və s. məhsullar üstünlük təşkil edib.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2022-ci ilin 31 mart tarixinə kimi (63 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 2 milyard 936 milyon ABŞ dolları təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ

(milyon ABŞ dolları ilə)









# 2022-Cİ İLİN MART AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR



AZEXPORT.AZ
Made in Azerbaijan

- Tütün
- Pambıq lifi
- Pambıq yağı
- Günəbaxan yağı
- Tikinti materialları
- Toyuq əti
- Buğda unu
- Kartof

6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT

## 2022-ci ilin aprel ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 29,2 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2022-ci ilin aprel ayı ərzində 157 müraciət daxil olub. Müvafiq dövr ərzində 273 ədəd sertifikat (89 ədəd mənşə, 32 ədəd baytarlıq, 136 ədəd fitosanitar, 16 ədəd CİTES) təqdim edilib.

2022-ci ilin aprel ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **29,2 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidi cecəsi, pambıq uluku, pambıq tiftiyi, nar, alma, heyva, qarışıq şirələr, narşərab, pendir, kərə yağı, tibbi zəli, dondurulmuş toyuq ayaqları, yemlik kəpək, plyonka, electron qolbaq üçün lövhə, mobil nəzarət cihazı, pomidor, iribuynuzlu heyvan dərisinin sənayedə kəsilməsi nəticəsində yığılan faydasız tullantılar, krast olunmuş astarlıq iribuynuzlu heyvan dərisi, iribuynuzlu heyvanın daxili orqanları, iribuynuzlu heyvanların emal olunmamış gönlərin kəsikləri, balıq kürüsü, polad boru, polad armatur yayması, torf, taxta palet ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, pambıq mahlıcı, polad boru, tibbi zəli, meyvə şirələrinin ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, İraq, İran, Vyetnam, Türkiyə, Rusiya, İran, İraq, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, İndoneziya, Estoniya, Niderland, Moldova, Fil Dişi Sahili, Ukrayna, Çin, Rumıniya, Koreya üstünlük təşkil etmişdir.



# 2022-Cİ İLİN APREL AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI
(milyon ABŞ dolları ilə)

2022
İXRAC İCMALI
aprel



# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ TƏRƏFİNDƏN VERİLƏN SERTİFİKATLAR
(faizlə)

**49%**
Fitosanitar sertifikatı

**33%**
Mənşə sertifikatı

**12%**
Baytarlıq sertifikatı

**6%**
CİTES sertifikatı

İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN
"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat